**UOT 027.2 (479.24)**
**KBT Ч734(2A)715**

# Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası yeni mərhələdə

**A.K.Səfərova**
aygunsafarova3@gmail.com

**Xülasə:** *Məqalədə AMEA MEK-nın qısaca tarixinə nəzər salınmış, AMEA MEK-nın keçmişi və bu günü haqqında məlumat verilmiş, MEK-nın yeni binaya köçdükdən sonra yeni strukturla fəaliyyətə başlaması, görülən işlər haqqında qısa hesabat verilmişdir.*
**Açar sözlər:** *AMEA MEK, kitabxana strukturu, kitabxana idarəetmə sistemi, milli rəqəmsal yaddaş*
**Ключевые слова:** *НАНА ЦНБ, структура библиотеки, система библиотечного менеджмента, национальная цифровая память*
**Key words:** *ANAS CSL, library structure, Library management system, national digital memory*

Cəmiyyətdə baş verən inkişaf və dəyişikliklər kitabxanalara o qədər ciddi təsir göstərirdi ki, bütün kitabxana sistemini köklü surətdə yeniləmək lazım gəlirdi. Bu gün dünya dördüncü informasiya inqilabının astanasında dayanıb. Kitabxanalar informasiya məlumatlarının avtomatlaşdırılmış emalından meta-baza əsasında yaradılmış kibernəkanda biliyin birbaşa mübadiləsinə qədər bir yol keçə bilər. Tarixi mənbələri, insan sivilizasiyasının mənəvi nailiyyətlərini toplayıb qoruyan kitabxanalar "cəmiyyətin yaddaşına" çevriliblər. Kitabxanalar informasiya məlumatlarını yalnız qoruyub saxlamaqla məşğul olmur, eyni zamanda lazım gəldikcə cəmiyyətin istifadəsinə verir. Ənənəvi kitabxanalardan fərqli olaraq müasir kitabxanalar sənədlərin elektron variantlarını toplayıb saxlamağa üstünlük verir. Məlumatların sistemləşdirilməmiş nəzarətsiz axını qarşısında kitabxanalar elektron mühitdə bu axını sistemləşdirir, onların uzunmüddətli qorunmasını təmin edir, informasiya resurslarına çıxış imkanı yaradır, onları cəmiyyətin ixtiyarına verir.

Azərbaycan Respublikasında yerləşən böyük kitabxanalar da öz fəaliyyət sahələrini genişləndirərək oxuculara xidməti ən müasir bir şəkildə həyata keçirməyə çalışırlar. Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir.

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır. Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Bu gün geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur. Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyaların tətbiqini zəruri edir. Elektron kitabxanaların yaradılması sürətləndirilir, ənənəvi kitabxanalar yüksək səviyyəli texnologiya ilə təmin edilir. Azərbaycan oxucuları dünya kitabxanalarının məlumat bazasından istifadə etmək imkanı əldə edirlər.

Respublikamızda ən böyük elmi kitabxana şəbəkələrindən biri də Azərbaycan Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsidir. Respublikamızda elmi kitabxana xidmətinin təşkilinə 20-ci illərdən başlanılmışdır. 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yarandı. Bu cəmiyyət Azərbaycan elminin ilk elmi-tədqiqat müəssisəsi kimi Azərbaycan tarixinin, arxeologiyasının, etnoqrafiyasının, coğrafiyasının, Azərbaycan dili və ədəbiyyatının, ümumiyyətlə, mədəniyyət tariximizin öyrənilməsində ilk elmi-tədqiqat müəssisəsi kimi çox böyük rol oynamışdır. Cəmiyyət elmi işçilərə xidmət etmək üçün 1923-cü ildə elmi kitabxana təşkil etdi. Cəmiyyət 1929-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna çevrildi. Kitabxana da fəaliyyətini bu institutun tərkibində davam etdirməyə başladı. Kitabxana fondu artaraq 1934-cü ildə 46,5 min nüsxəyə çatmışdı. 30-cu illərdə qarşıda kitabxana fondunu qiymətli kitablarla və dövri mətbuatla təkmilləşdirmək vəzifəsi qoyulmuşdu. Qiymətli kitabların əldə edilməsi işi filialın görkəmli alimlərinə tapşırılmışdı [7, s.83].

1935-ci ildə SSRİ EA Rəyasət Heyəti Akademiyanın Azərbaycan filialının yaradılması haqqında qərar qəbul etdi. Respublika elminin həyatında mühüm əhəmiyyət kəsb edən bu qərarın kitabxana işinin inkişafında da böyük rolu oldu. Kitabxananın maddi-texniki bazasının möhkəmlənməsinə, fondun yeni ədəbiyyatla təkmilləşməsinə, xarici əlaqələrin genişlənməsinə, oxuculara xidmət işinin yeni əsaslar üzərində qurulmasına olduqca əhəmiyyətli təsir göstərirdi.

Müharibə illərində (1941-1945-ci illər) kitabxana fəaliyyətini dayandırmamış, öz işini bilavasitə müharibənin qarşıya qoyduğu vəzifələrin həllinə yönəltmiş, müharibə mövzusunu ön plana çəkmişdi.

1945-ci ilin mart ayında SSRİ EA Azərbaycan filialı və respublikanın bir sıra elmi-tədqiqat müəssisələri bazasında Azərbaycan Elmlər Akademiyası yarandı. Azərbaycan Elmlər Akademiyasının yaranması respublikamızın elmi həyatında böyük hadisə olmaqla, Azərbaycan elminin gələcək inkişafı üçün bö-

yük perspektivlər açdı. Akademiyanın yaranması kitabxana işinin inkişafına böyük təkan verdi. Artıq 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının 16 institut, 3 muzey, 4 baza kitabxanası var idi [7, s.85].

1950-70-ci illər Azərbaycan Elmlər Akademiyası kitabxanasının həyatında çox uğurlu illər olmuşdur. Bu dövrdə kitabxananın maddi-texniki bazası möhkəmlənmiş, fondu əsaslı surətdə zənginləşmiş, oxucuları artmış, oxuculara kitabxana, məlumat-biblioqrafiya və informasiya xidməti işinin keyfiyyəti yaxşılaşmış, elmi-metodik baza kimi möhkəmlənmişdi.

1974-cü ildən SSRİ məkanında kitabxanalar mərkəzləşdirməyə başladığı kimi Azərbaycanda da bu tədbir həyata keçirilməyə başladı. Artıq 1976-cı ildə akademiyanın kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi başa çatdırıldı. Mərkəzləşdirmə akademiyaya bütün kitabxana resurslarını birləşdirmək, böyük informasiya və kadr potensialına malik bir kitabxana kompleksi yaratmaq imkanı verdi ki, bu da elmə kitabxana xidmətini yeni elmi əsaslar üzərində qurmağa şərait yaratdı.

Respublikamız müstəqillik əldə etdikdən sonra kitabxana öz işini bilavasitə müstəqilliyin qarşıda qoyduğu vəzifələrə yönəltdi. Milli ideologiyanın yaranıb formalaşmasında, Azərbaycan tarixinin və ədəbiyyatının təbliğində, Azərbaycan elminin inkişafında mühüm işlər görməyə, oxuculara kitabxana xidmətini yeni tələblər üzərində qurmağa başladı.

AMEA Mərkəzi Elmi Kitabxana 1993-cü ildə Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasının (Internarional Federation Assosaciations and İnstitutions) üzvü seçilir. 2012-ci ildə AMEA Mərkəzi Elmi Kitabxanası Avropa Şurası yanında Elmi Kitabxanalar Assosasiyasının tam hüquqlu üzvlüyünə qəbul edilir. AMEA Mərkəzi Elmi Kitabxana Azərbaycanda fəaliyyət göstərən kitabxanalar arasında bu təşkilata üzv olan ilk kitabxana olur [4].

Mərkəzi Elmi Kitabxana artıq 93 ildir fəaliyyət göstərir. Bu müddət ərzində kitabxana 3 dəfə yerini dəyişmişdir. Birinci dəfə Rəyasət Heyətinin binasından əsas binaya köçürülmüşdür. Tam 46 il əsas binada oxuculara xidmət göstərmişdir. 1999-cu ildə kitabxana işi ilə bağlı qəbul edilən qərarda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması ön plana çəkildi. Məhz həmin sərəncamdan sonra Mərkəzi Elmi Kitabxanaya yeni binanın tikilməsi haqqında qərar qəbul edildi. Bina 2014-cü ilin may ayında istifadəyə verildi. Bununla da Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının həyatında yeni bir mərhələ başladı [1].

Köçürülmə planı hazırlandı, MEK-nın işçi heyəti tam şəkildə səfərbər olunmuş, işçilərin peşə profilinə uyğun işlər müvəqqəti olaraq dayandırılmış, işçilər kitabların fondlardan boşaldılması, qablaşdırılması, nömrələnməsi, yeni binaya gətirilib boşaldılmasına və kitab saxlanclarında yerləşdirilməsi, kataloq və kartotekaların yenidən yığılmasına səfərbər olunmuş, daşınma üçün material

ehtiyatı görülmüş, köçmənin effektivliyinin təmin edilməsi üçün modul hazırlanmış, əsas və yeni binada eyni vaxtda paralel işlər aparılmışdır.

Elektron avadanlıq və məlumat bazalarının köçürülməsi zamanı İRBİS bazaları çıxarılmış, işçilərə məxsus elektron məlumatlar, sənəd və faylların surəti çıxarılmış və yeni binada işçilərin istifadəsinə verilmişdir.

MEK-in kitabxana fondlarında yararsız vəziyyətə düşmüş, itmiş, sənədləşdirilmədən kitabxanadan çıxarılmış və yerində aşkarlanmamış mənbələrə, eləcə də kitabxanada mövcud olan, lakin sənədləşdirilməmiş mənbələrə dair aktlar, fotoşəkillər və protokol ilə sənədləşdirmə aparılmışdır: fonddan və kataloqdan çıxarılması barədə sənədləri olmayan və yerində aşkarlanmayan 11965 nüsxə ədəbiyyat balansdan silinmiş; istifadəyə yararsız hala düşmüş, aktuallığını itirmiş xırda broşuralardan ibarət 2872 nüsxə kitab balansdan silinmiş; rus ədəbiyyatı fondunun C formatında yararsız hala düşmüş, adı və inventar nömrəsinin aydınlaşdırılması mümkün olmayan miqdarı 200 nüsxə kimi hesablanan ədəbiyyat fonddan xaric edilmiş; balansdan çıxarılması sənədləşdirilmiş, lakin Kitab Fondundan fiziki olaraq çıxarılmamış Azərbaycan və rus dilində ədəbiyyata yenidən baxılmış, əhəmiyyətli nüsxələr seçilərək Komplektləşdirmə bölməsinə verilmiş və fonda daxil edilmiş, qalan nüsxələr atılmışdır; Fondlar yoxlanıldıqda kitabxanaya aid olmayan 530 sayda sənədləşdirilməmiş rus ədəbiyyatı aşkarlanmış, fiziki baxımdan yararlı və məzmunca əhəmiyyət kəsb edən nüsxələr seçilmiş və Komplektləşdirmə bölməsinə fonda salınmaq üçün təhvil verilmişdir; oxucular tərəfindən qaytarılmamış 431 nüsxə ədəbiyyat balansdan çıxarılmış; 493 sayda içində çap olunmamış əlyazma vərəqlər olan dəftərxana qovluqları heç bir məzmun əhəmiyyəti kəsb etməməsi səbəbindən kitabxanadan fiziki olaraq çıxarılmışdır. Aspirantların yataqxanasında yararsız hala düşmüş 13154 nüsxə kitab isə aktlaşdırılaraq, kitabxanadan xaric edilmişdir [2].

Nadir kitab fondu, Qərbi Avropa ədəbiyyatı fondu, Lüğətlər fondunda yenidən topoqrafik kataloq tərtib edilmişdir. Jurnal, qəzet və ardı davam edən nəşrlər fondunda xidməti kataloqların yenidən tərtibatı başlanılmışdır. 23 komplekt qəzet cildlənmişdir. 500 nüsxə avtoreferat ümumi ədəbiyyat fondundan avtoreferatlar fonduna işlənərək təhvil verilmişdir.

Mübadilə fondundan Bakı və regionların 86 kitabxanasına 9291 nüsxə, sərgilərə və başqa təşkilatlara isə 921 nüsxə, oxuculara stimullaşdırmaq məqsədi ilə 100 kitab hədiyyə edilmişdir.

MEK müasir kitabxana strukturuna uyğunlaşdırılmışdır. İlk növbədə kitabxananın strukturunda bir çox dəyişikliklər edilmiş və kitabxana yeni fəaliyyətə yeni strukturla başlamışdır.Yeni şöbələr və onların tərkibində yeni bölmələr yaradılmışdır. Ölkəmizin kitabxana işi tarixində ən müasir avadanlıq və sistemlər ilk dəfə məhz bu kitabxanada tətbiq olunmuşdur. Girişdəki elektron köşklərdə kitabxananın strukturu, hər bir mərtəbənin sxemi, müxtəlif bölmələ-

rin yerləşdiyi mərtəbələr, kitablar, o cümlədən fonda yeni daxil olan nəşrlər barədə müfəssəl məlumat almaq mümkündür. Hərəkət qabiliyyəti məhdud olan insanların informasiya almaları üçün burada xüsusi köşk quraşdırılmışdır. Kitabxananın bütün mərtəbələrində quraşdırılan monitorlarda fonda daxil olan ən son yeniliklər barədə dolğun məlumatlar əksini tapmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında hal-hazırda fəaliyyət göstərən aşağıda adları çəkilmiş şöbələr və onların bölmələri tam şəkildə oxuculara xidmət etməyə hazırdır.

1. İnformasiya Texnologiyalarının hazırlanması və tətbiqi şöbəsi
2. Milli Rəqəmsal Yaddaş şöbəsi
3. İnnovativ layihələr şöbəsi
4. Beynəlxalq və İctimai əlaqələr şöbəsi
5. Kitabxana-xidmət şöbəsi
6. Ümumi şöbə
7. İnzibati şöbə [2].

Qeyd olunduğu kimi, struktur islahatları aparılmış, kitabxananın strukturunda İnformasiya Resursları Mərkəzi yaradılmışdır. Mərkəz informasiya texnologiyalarının hazırlanması və tətbiqi, milli rəqəmsal yaddaşın formalaşdırılması, innovativ layihələrin hazırlanması və icrası funksiyalarını yerinə yetirir. Bilavasitə kitabxana strukturunda biri-birinin işini təkrar edən şöbə və bölmələr ləğv edilmiş, kitabların konveyer üsulu ilə fondların vahid mərkəz tərəfindən qəbul edilməsi, vahid siyahıya salınması, təhvil-təslim olunması, konveyer üsulu ilə komplektləşdirmə, kataloqlaşdırma və fondların mühafizəsi bölmələrinə ardıcıl şəkildə daxil olması təmin edilmişdir. Elmi Şura ləğv edilmiş, İdarə heyəti, daxil olan informasiya mənbələrinin Qiymətləndirmə Komissiyası yaradılmışdır.

Heydər Əliyev irsi rəqəmsal və çap formatda sərgisi hazırlanmış və daimi nümayişə qoyulmuşdur, materiallar sistemləşdirilmiş, Milli Rəqəmsal Yaddaşa salınmışdır.

"Kitabxana İdarəetmə Sistemi" proqramının hazırlanması üçün kitabxana işinin analizi aparılmış, MEK-də fəaliyyət göstərən şöbələr üzrə iş prosesləri müəyyənləşdirilmiş, bütün təkliflər nəzərə alınmışdır. İkinci mərhələdə İRBİS proqramı da daxil olmaqla Azərbaycanda mövcud olan bir neçə fərqli təşkilatlarda istifadə edilən, eləcə də Rusiya, İngiltərə, Almaniya kitabxanalarının proqramları ilə yaxından tanış olunmuş və təhlil aparılmışdır.

Verilənlər bazasının strukturunu və proqramın funksionallığı müəyyənləşdirilmiş, iki fərqli proqram təminatı - kitabxanaçılıq işinin və oxucularla bağlı aparılan xidmət işlərini özündə əks etdirən "Kitabxana İdarəetmə Sistemi" adlı Windows Application proqramı və göstərilən kitabxana xidmətinin keyfiyyətini artırmaq üçün on-line rejimdə çalışan "Kitabxana Xidmət Portalı" adlı Web Application – qərar verilmişdir.

İRBİS proqramında əməkdaşlar tərəfindən qeydiyyatı aparılmış informasiya vahidlərinin olmasını və bu məlumatların yeni proqramda təkrar işlənməməsi üçün yeni proqrama daşınması məqsədilə İRBİS proqramının IT istifadə tərəfləri öyrənilmiş, məlumat strukturu təhlil edilmiş və məlumatların daşınması üçün proqram modulu yazılmışdır. Daşınmış məlumatlar üzərində çalışılmış və hazırlanmaqda olan verilənlər bazasına uyğunlaşdırılma aparılmışdır. Nəticədə, İRBİS proqramında qeydiyyatı aparılmış 32.497 sayda informasiya vahidinin biblioqrafik təsviri və 48.786 sayda inventarın komplektləşdirmə məlumatları proqramı verilənlər bazasında istifadəyə hazır formaya salınmışdır.

"Kitabxana İdarəetmə Sistemi" proqramında Oxucuların qeydiyyatı modulu Mərkəzi Elmi Kitabxananın açılış günü istifadəyə təhvil verilmişdir. Bu modul oxucuların qeydiyyatı, oxucu kartlarının çap edilməsi, məlumatların "KaDe" turniket sistemi ilə inteqrasiyası və "3 M" cihazı ilə inteqrasiyanı özündə birləşdirir.

Oxucular tərəfindən informasiya vahidlərinin axtarılması, məlumat bazasında mövcud olan və olmayan informasiya vahidlərinin sərbəst şəkildə sifariş edilməsi üçün "Sifarişlərin Qəbul Edilməsi" modulu hazırlanıb istifadəyə verilmişdir.

İnformasiya vahidlərinin oxuculara təqdim olunması və təhvil alınması üçün görülən işlərin proqramda yerinə yetirilməsi məqsədilə "Foye Əməliyyatları" modulu hazırlanıb istifadəyə verilmişdir.

Oxucular sifarişini verdikləri informasiya vahidlərinin təhvil götürə biləcəkləri zaman onların məlumatlandırılması və götürəcəyi yerin bildirilməsi haqqında böyük ekranlarda xəbərdarlıqların edilməsi məqsədi ilə "Sifarişlərin İzlənilməsi" ekran modulu da hazırlanaraq təhvil verilmişdir.

Xidmət sahəsində baş verən əməliyyatlara nəzarət edilməsi və problemlərin anında müəyyən edilərək müdaxilə edilməsi məqsədilə "Oxucu Sifarişlərinə Nəzarət" ekranı hazırlanıb təhvil verilmişdir. Oxucuların kitabxana xidmətindən istifadə etmələri haqqında rəsmi arayışın proqramdan çap edilməsi təmin edilmiş, oxucunun sifariş etdiyi kitabların siyahısı və kitabxanada keçirdiyi müddət əks etdirilmişdir.

Oxucular tərəfindən sifariş edilmiş informasiya vahidləri haqqında məlumatların saxlancda qəbul edilməsi və görülən əməliyyatların proqram üzərindən yerinə yetirilməsi üçün "Saxlanc Əməliyyatları" modulu hazırlanıb istifadəyə verilmişdir.

Daxil olan informasiya mənbələri barədə məlumatların beynəlxalq təsnifata inteqrasiya edilməsi, eləcə də Vahid İdarəetmə Sistemində qeydiyyat və nəzarət imkanı verən "Komplektləşdirmə əməliyyatları" və "Kataloqlaşdırma əməliyyatları" modulları hazırlanmış və istifadəyə verilmişdir.

Qeyd etmək lazımdır ki, universal formatda hazırlanmış modulların hesa-

bat imkanları eyni vaxtda İSO, eləcə də MARC 21 standartına və Azərbaycan kitabxana qeydiyyat-hesabat qaydalarına cavab verir və istənilən sorğunu cavablandıran hesabatı eksport etmək imkanındadır.

MEK informasiya fondlarının zənginləşdirilməsi məqsədi ilə pulsuz məcburi nüsxələrin kitabxanaya daxil olması üçün nəşriyyatlar ilə qanun və prosedurlara əsaslanaraq sistem şəklində əlaqələr yaratmış, nəticədə 8216 ədəd pulsuz məcburi nüsxə kitab, 343 ədəd 93 adda məcburi nüsxə jurnal,74 adda məcburi nüsxə qəzet, 145 adda elmi jurnal daxil olmuşdur. 7500 kitab kitabxanaya hədiyyə olunmuşdur. Beynəlxalq Mübadilə vasitəsi ilə ABŞ Konqres Kitabxanası, Miçiqan Universitet Kitabxansı, Bolqariya Elmlər Akademiyası Kitabxanası, Rumıniya Akademiyasının Kitabxanası, Ohridski adına Sofiya Universitet Kitabxanası, Yaponiya Kimya Cəmiyyəti, Macarıstanın Elmi Ədəbiyyat üzrə Mübadilə Mərkəzi, Yaponiya EA Kitabxanası, Berlin-Brandenburq EA Kitabxanası, Almaniyanın Zooloji toplular üzrə Kitabxanası, Çin Milli Kitabxanası, Posdam Universitet Kitabxanası, Bavariya EA kitabxanası, Gazi -Xosrov Kitabxanası (Bosniya və Herseqovina), Türk dünyası Araşdırmaları Vakfı, Praqa xalq Kitabxanası, Polşa EA Riyaziyyat İnstitutunun Kitabxanası, Finlandiyanın Nəşrlərin Mübadiləsi Mərkəzi, Humanitar və Sosial elmlərin sənədləşdirilməsi Mərkəzi (Fransa), Rusiya Milli Kitabxanası, Rusiya Dövlət Kitabxanası, Moldova EA Kitabxansı və Belarus Milli Kitabxanasından 449 adda elmi jurnal daxil olmuşdur. UNESCO tərəfindən, Amerika-Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti tərəfindən xarici dildə 3933 jurnal, Azərbaycan və ingilis dillərində 921 nüsxə kitab MEK-ə hədiyyə edilmişdir. Həmçinin fondlar 947 ədəd tarixi əhəmiyyətli, 14 ədəd iqtisadiyyat sahəsində elektron resurslar ilə zənginləşdirilmişdir.

Azərbaycanda fəaliyyət göstərən bir sıra mədəniyyət mərkəzləri, muzey və arxiv idarələri ilə çap və elektron informasiya resursları üzrə qarşılıqlı mübadilə aparmaq və birgə tədbirlər keçirmək məqsədi ilə əməkdaşlıq etmək üçün yazışmalar aparılır. Belə ki, Azərbaycan Respublikası Prezident Kitabxanası, Respublika Elmi Texniki Kitabxana, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, AMEA Tarix Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Cəlil Məmmədquluzadənin Ev Muzeyi, Üzeyir Hacıbəyovun Ev Muzeyi, M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanası ilə əməkdaşlıq barədə razılıq əldə edilmişdir.

Çap və elektron formada informasiya mübadiləsi aparmaq və birgə layihələr həyata keçirmək, konfranslar, simpoziumlar və sərgilər keçirmək məqsədi ilə əməkdaşlıq qurmaq üçün 60-a yaxın ölkənin Azərbaycandakı səfirliklərinə müraciət məktubları göndərilmişdir. Kolumbiya, İsveç, Türkmənistan, Fələstin, Cənubi Koreya, Rusiya, BƏƏ, Əfqanıstan, Mərakeş, Misir, Yunanıstan, Polşa və Macarıstan kimi ölkələrin Azərbaycandakı səfirləri və diplomatik nümayəndələri ilə görüşlər keçirilmiş, ölkə səfirləri kitabxanada qonaq olmuş və kitab-

xana ilə yaxından tanış olmuşlar. İkitərəfli əməkdaşlıq memorandumları müzakirə olunmuşdur. Keçirilən hər bir görüşdə səfirlik və elmi təşkilatların vasitəçiliyi ilə Azərbaycanın tanıdılması, eləcə də iki ölkənin elm və mədəniyyət sahəsindəki təmaslarının gücləndirilməsi üçün MEK ilə birgə layihələrin həyata keçirilməsi təşəbbüsləri irəli sürülür.

AMEA Mərkəzi Elmi Kitabxanasında Azərbaycan haqqında sistemləşdirilmiş və mərkəzləşdirilmiş məlumat bazası olan "Milli Rəqəmsal Yaddaş" (MRY) şöbəsinə dövlətin rəsmi qurumlarına məxsus sənədlər, şəxsi arxivlər, mühüm tarixi mənbələr (incəsənət nümunələri, əlyazmalar, eksponatlar) bu bazaya daxil edilərək Azərbaycan və dünya internet istifadəçilərinin ixtiyarına veriləcəkdir. Yeni binada kitab fondunun ənənəvi qaydada zənginləşdirilməsi ilə yanaşı, Azərbaycanda fəaliyyət göstərən kitabxana, fond, muzey, orta məktəblər, ali təhsil ocaqları, elmi tədqiqat institutları, media qurumları, arxivlər, şəxsi kolleksiyalar, yaradıcılıq ittifaqlarının fondları, dövlət foto arxivi, həmçinin dünya muzeyləri, sərgi salonları və elmi-tədqiqat mərkəzlərində Azərbaycana aid müxtəlif məlumatlar, incəsənət nümunələri, əlyazmalar, eksponat və sənədlərin elektron kataloqu yaradılacaq və sistemləşdirilərək "Milli rəqəmsal yaddaş" bazasına daxil ediləcəkdir. Bu isə istər həmyerlilərimiz, istərsə də xaricilər üçün Azərbaycan haqqında dolğun və obyektiv məlumatlardan istifadə imkanı yaradacaqdır [5].

**Ədəbiyyat**


1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Azərbaycan, 2007, 24 aprel, s.1
2. Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının 2015-ci il üzrə hesabatı.
3. https://az.wikipedia.org/wiki/AMEA_Merkezi_ Elmi_Kitabxana
4. AMEA-nın Mərkəzi Elmi Kitabxanası beynəlxalq kitabxana təşkilatına üzv olmuşdur. [Elektron resurs]. URL: http://azertag.az/xeber/AMEA_nin_Merkezi_Elmi_Kitabxanasi_beynelxalq_kitabxana_teskilatina_uzv_olmusdur-164868
5. "Azərbaycan kitabxana-informasiya sistemində elektron kataloq və MARC 21" mövzusunda dəyirmi masa keçirilib.[Elektron resurs]. URL: http://www.azerbaijan-news.az/index.php?mod=3&id=44465
6. https://az-az.facebook.com/AMEA-Merkezi-Elmi-Kitabxana-İnformasiya-Resurslar-Merkezi-566260610149176/
7. Xələfov A. Kitabxanaşünaslığa giriş: III hissə: Kitabxana işi haqqında təlim. B., 2003, 310s.

**Центральная Научная Библиотека при НАНА на новом этапе**
А.К.Сафарова

**РЕЗЮМЕ**

*В статье отражены краткая история ЦНБ при НАНА со дня ее создания, ее состояние и работа в настоящее время, функционирование ЦНБ в своей новой структуре принятой после переезда в новое здание, а также отчет о последних достижения ЦНБ .*

**Central Scientific Library of ANAS at a new stage**
A.K.Safarova

**SUMMARY**

*The article reflects on a brief history of the CSL establishment and functioning under ANAS, its present status and conditions, its new work structure that was put in place after recent move to the new building, as well as the report on recent achievements of the CSL.*